# Rusiyalı turistləri valeh edən Bakı

Ümumdünya Turizm Təşkilatının reytinq cədvəlində Azərbaycanda turizmin inkişaf dinamikası 20 faiz səviyyəsində qiymətləndirilmiş və Avropa ölkələri arasında 7-ci yerə layiq görülmüşdür. Həm də bu səbəbdən ölkəmizə ötən il təkcə Rusiyadan gələn turistlərin sayı 800 mini keçmişdir. Bu rəqəm əvvəlki ildəkindən xeyli artıqdır.



Əlaqələrimizdən istifadə edib Moskvaya telefon açıb, Azərbaycana vaxtaşırı qonaq gələn ruslarla danışdıq. İrina Mojayeva dedi ki, onun ən yaxın dostları vaxtilə Moskvada bir yerdə oxuduqları azərbaycanlı tələbələrdir: “Onlar sizin ümummilli lideriniz Heydər Əliyevin kadrları idi. Aradan yarım əsrə yaxın vaxt keçsə də, münasibətlərimiz qırılmır, onlar mənə ən yaxın qohum qədər doğmadırlar. Bakı isə yaddaşımda doğma xatirələrlə qalıb. Atamla anam İkinci Dünya müharibəsindən əvvəl orada yaşayıblar. Həmişə də evimizdə masa arxasında əyləşəndə atam anama azərbaycansayağı zarafatyana deyərdi: “Arvad, kişi danışanda kiri və qulaq as!” Sonuncu dəfə Bakıya gələndə azərbaycanlı dostlarımın ailəsində oldum, fərqli ər-arvad münasibətlərini gördüm. Sizdə ailələr bizdəki qədər çox dağılmır, valideynlər uşaqlarına zəncir kimi bağlıdırlar. Biz sizin paytaxtı bənzərsiz, müasir, insanlarınızı isə üzügülər, mehriban kimi tanıyırıq. Xahiş edirəm ki, sevdiyim, vurulduğum, aludə olduğum şəhərə mənim salamlarımı çatdırasınız”.

Moskvalı yazıçı Vitali Abramov da Bakıda dəfələrlə olub. Hətta həyat yoldaşının ad gününü keçirməyə Azərbaycana gəlmişdi. Həyat yoldaşı Lena dedi ki, Qafqaz əsrarəngizdir, Avropadan da üstündür: “Keçən il ad günümü Vyanada keçirdik, yağış əlindən şəhərə çıxa bilmədik, heç nə də görmədim. Azərbaycanda isə tamam fərqli doğum günü qeyd etdik”.

Tanıdığım moskvalı jurnalistlərdən Liliya Militskaya, Svetlana və Tanya Çeçilovalar da Bakıda, Qubada, Qobustan və Şamaxıda gördüklərini heç vaxt unudan deyillər.

Soyuq mart axşamı paytaxta çıxdıq. Hələ turist mövsümü olmasa da, əcnəbilər az-çox gözə dəyirdilər. Dənizkənarı parkda Novosibirskdən gələn ailə ilə tanış olduq. Oleq özünü ailənin başçısı kimi təqdim etdi:

- Biz bahara qonaq gəlmişik, iki həftə qalasıyıq. Qışdan bahara, şimaldan cənuba düşmək maraqlıdır. Yəqin bir həftəyə tumurcuqlayan ağaclar çiçək açacaq, yarpaqlayacaqlar. Şəhərinizdən yüksək zövq alırıq.

***Bahadur İMANQULİYEV,***
***Ağəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

